Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *İstiqlal aşiqi Ceyhun Hacıbəyli*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən bəstəkar, publisist, ictimai xadim Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncama əsaslanaraq respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2016**

Tərtibçi: **Ruhiyyə Məmmədli**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**İstiqlal aşiqi Ceyhun Hacıbəyli:**C.Hacıbəylinin 125 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt. ed. R.Məmmədli. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2016. - 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2016**

**Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2016-cı ilin fevral ayında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı-publisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 125 illiyi tamam olur.

Milli ədəbi-ictimai fikir tarixinə töhfələr verən Ceyhun Hacıbəyli Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Ceyhun Hacıbəylinin milli mədəniyyətin inkişafı və təbliği sahəsində mühüm xidmətlərini nəzərə alaraq qərara alıram:

1.Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Ceyhun Hacıbəylinin 125 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 noyabr 2015-ci il.

## Tərtibçi

Xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadimlərimizdən biri də Ceyhun Hacıbəylidir. Ceyhun Hacıbəyli mühacir ədəbiyyatımızın, tariximizin, publisistikamızın inkişafında və təbliğində müstəsna xidmətləri olan, adı azadlıq tariximizə qızıl hərflərlə yazılan ədiblərimizdəndir. O, əqidə və amalından dönməyərək Azərbaycanın müstəqilliyi uğrunda qəhrəmancasına mübarizə aparmışdır. Milli istiqlaliyyətimiz uğrunda apardığımız mübarizənin ayrı - ayrı məqamlarında vətən torpağımız zaman - zaman igidlərimizin qanları ilə suvarılsa da, ruhumuzda olan azadlıq eşqini düşmən məhv edə bilməyib. Bu gün Azərbaycan Demokratik Respublikasının yaranmasının əsl milli tarixi bayram kimi təntənəli şəkildə qeyd olunması da məhz bu əzmin və azadlıq idealından dönməzliyin nəticəsidir. Adı Azərbaycanın Azadlıq tarixinə qızıl hərflərlə yazılan C.Hacıbəyli mühacirətdə yaşadığı bütün dövrdə (1919-1962) əqidə və amalından dönməmiş, son nəfəsinədək sovet imperiyası ilə ideoloji mübarizə aparmış, Azərbaycanın müstəqilliyi uğrunda bacardığını əsirgəməmişdir. Ceyhun Hacıbəylinin ömür yolunu, örnək fəaliyyətini araşdırıb xalqımızın, oxucularımızın diqqətinə çatdırmağı özümüzə borc bildik. Çünki xeyirxah ənənələr xatırlandıqca canlanar və yenidən yaşadılmağa səbəb olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamı nəzərə alaraq “İstiqlal aşiqi Ceyhun Hacıbəyli” adlanan vəsait hazırladıq. Vəsait iki hissədən ibarətdir. I hissə Ceyhun Hacıbəylinin həyat və yaradıcılığından, II hissə isə yubiley tədbirlərinin keçirilməsindən bəhs edir.

## *İstiqlal aşiqi Ceyhun Hacıbəyli*



Yazıçı, salnaməçi, jurnalist, tərcüməçi, redaktor Ceyhun Hacıbəyli 1891-cı il fevralın 3-də Şuşa şəhərində anadan olmuşdur. Ceyhun bəy ilk təhsilini əvvəl Şuşada almış, sonra isə Bakıda rus-tatar məktəbində təhsilini davam etdirmişdir. 1908 - ci ildə xeyriyyəçi M.Muxtarovun maddi köməkliyi ilə Peterburq Universitetinin hüquq fakültəsinə qəbul olunmuş, bir il sonra isə təhsilini davam etdirmək məqsədilə Parisə gedərək Sorbonna Universitetində oxumuşdur. Ceyhun bəy nüfuzlu Hacıbəylilər ailəsinin Azərbaycan maarifçiliyinə daha bir hədiyyəsi idi. Əsasən bədii, elmi ədəbiyyat və publisistika ilə məşğul olmasına baxmayaraq, bir şuşalı balası kimi musiqi sahəsində də qardaşı Üzeyirə kömək edirdi. Şərqin ilk operası olan "Leyli və Məcnun"un ərsəyə gəlməsində onun da müəyyən xidmətləri var. Hətta 1908-ci ildəki ilk premyerada Ceyhun Hacıbəylinin İbni Səlam və Nofəl rolunu da oynamışdır. Amma təbii ki, ictimai arena onu özünə daha çox çəkirdi. Ceyhun bəy geniş dünyagörüşü qazanmaqla yanaşı, bir neçə xarici dili də öyrənməyə macal tapdı. Elə bu üzdən də 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin Versal sülh konfransında müşaviri təyin olunur. Əlimərdan bəy Topçubaşov komandasının əsas simalarından olan C.Hacıbəyli bundan əvvəl parlamentin rəsmi orqanı olan "Azərbaycan"qəzetində redaktor kimi də öz bacarığını göstərmişdir. Versal Sülh Konfransı respublika üçün ciddi əhəmiyyət daşıdığından 1919-cu ilin yanvar ayının 7-də orada iştirak edən Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "general" mandatı təqdim olunur.Versala ezam olunan nümayəndə heyəti öz işini çox böyük ustalıqla yerinə yetirir. Fasilələrlə davam edən konfransın yekununda "Antanta" ittifaqı Azərbaycanın müstəqilliyini tanıyır. Bu, təbii ki, sovet Rusiyasını qəzəbləndirməyə bilməzdi. Nümayəndə heyəti

məcburiyyət qarşısında qalıb elə Avropada məskunlaşmalı olur. Ceyhun Hacıbəyli də vətənə qayıda bilməyəcəyini qərarlaşdıraraq, ailəsini Fransaya gətirtməli olur. Ceyhun bəy özü də inanmırdı ki, Sovet rejimi onu nə zamansa bağışlaya bilər. Amma Bakıdakı ailəsi, xüsusən də Üzeyir bəy onun vətənə dönüşünü ömrünün sonuna qədər gözləyib. Fəxri Xiyabanda Hacıbəylilər ailəsinin dəfn olunduğu hissədə Üzeyir bəyin məzarının yanında bir boş yer var ki, onu da Ceyhun Hacıbəyli üçün saxlamışdılar. Ailəsi istəyirdi ki, o, Üzeyir bəyin yanında dəfn olunsun. Yəni onun vətənə qayıdacağına axıradək inanırdılar. Amma çox təəssüf hissi ilə qeyd edək ki, Ceyhun Hacıbəyli 1962-ci ildə Parisdə vəfat etmiş və orada torpağa tapşırılmışdır. O, bütün şüurlu həyatını tərəddüdsüz olaraq Azərbaycan uğrunda mübarizəyə həsr edib. Ceyhun Hacıbəylinin fransız dilində yazdığı hekayələr onun daxili dünyasını, narahat təbiətini, yurda qarşı sevgisini bütün çalarları ilə ifadə edir. Onun fransız dilini son dərəcə gözəl bilməsi, bu dildə ictimai-siyasi gedişatı əks etdirən dərin məzmunlu yazılar yazması siyasi hadisələri çox gözəl bildiyini göstərir. Onun Qarabağ folkloruna həsr edilmiş yazıları diqqəti xüsusi cəlb edir. Şəxsi fondundakı əsərlərinin sayca çoxluğu ilə yanaşı geniş əhatəliliyi, mövzu rəngarəngliyi maraqlı nüanslardandır.

Ramiz Abutalıbov hələ 1990-cı ildə SSRİ dağılmamış Ceyhun Hacıbəylinin arxivini böyük bir əzabla Parisdən Moskvaya, oradan da Bakıya gətirməyə müvəffəq olmuşdu. Bakıya gətirilən zəngin sənədlər içərisində Ceyhun Hacıbəyliyə aid xeyli soraqlar var idi. Ramiz Abutalıbov Azərbaycan mətbuatında nəşr etdirdiyi “Parisdə keçən günlər” adlı əsərini kitab halında da nəşr etdirib. Çox oxunaqlı bir dildə yazılmış həmin əsərdə C.Hacıbəylinin şəxsiyyəti, yaradıcılığı, mübarizəsi ilə bağlı maraqlı məqamlar var. Arxivdə habelə Ceyhun Hacıbəylinin həyat və yaradıcılığının müxtəlif məqamlarını əks etdirən fotoşəkillər qorunur.

# *İstiqlal aşiqi Ceyhun Hacıbəyli*

Müasir Azərbaycanın ədəbi-mədəni, mətbu, ictimai-siyasi həyatında parlaq iz qoymuş, yazıçı-publisist, tərcüməçi, naşir, redaktor, folklorşünas, ilahiyyatçı alim, sovetoloq, ictimai xadim, Azərbaycanın istiqlal mücahidi, mühacirətin fəal üzvlərindən və təşkilatçılarından biri Ceyhun Hacıbəyli XX əsrin əvvəllərində yetişən görkəmli xadimlərlə bir sırada durur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəstəkar, publisist, ictimai xadim Ceyhun Hacıbəylinin 125 illik yubileyi münasibətilə imzaladığı sərəncamı nəzərə alaraq respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. tədris müəssisələrində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbirlər planının maraqlı olması üçün Ceyhun Hacıbəylinin yaradıcılığını əks etdirən bukletlərin hazırlanması yerinə düşər. Bu bukletlər kitabxananın xidmət şöbəsi və oxu zalında hazırlanmış stendlərdə, sərgilərdə öz əksini tapır. Kitabxanada ilk əvvəl yubilyar haqqında foto sərgi, kitab sərgisi hazırlamaq olar. Ceyhun Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgi təşkili zamanı aşağıdakı sitatlardan istifadə etmək olar. ***"Azərbaycanın istiqlalı uğrunda ideoloji mücadilə aparan Ceyhun Hacıbəyli", "Qürbətdə bitən ömür-sönməyən azadlıq eşqi" "İstiqlal aşiqi Ceyhun Hacıbəyli", "Azərbaycan mühacirət irsində ilk və yeganə, həm də sənədli sinopsisin müəllifi Ceyhun Hacıbəyli", "Ceyhun Hacıbəyli-125", "Millət yoludur, haq yoludur tutduğumuz yol, Ey haq Yaşa, ey sevgili millət, yaşa, var ol!","İstiqlal mücadiləmizin parlaq siması Ceyhun Hacıbəyli", "Xalqa həsr edilmiş həyat", "Mətbuat tariximizin ilk tədqiqatçılarından biri Ceyhun Hacıbəyli" və s.*** Sərginin nümunəsini veririk.

**Başlıq. İstiqlal aşiqi Ceyhun Hacıbəyli**

1. Ceyhun Hacıbəylinin kitablarının nümayişi.
2. Görkəmli insanların Ceyhun Hacıbəyli haqqında söylədikləri sitatlar.
3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
4. Ceyhun Hacıbəylinin kitabları

***Mühacirəti bir yerə toplamağa səy ediniz, bu mühümdür.***

**Ceyhun Hacıbəyli**


















**Görkəmli şəxsiyyətlər  Ceyhun Hacıbəyli haqqında**

1.Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycanın bütün vətəndaşları - biz Azərbaycan Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik...

**Ulu öndər Heydər Əliyev**

2.Milli ədəbi-ictimai fikir tarixinə töhfələr verən Ceyhun Hacıbəyli Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

3.Azərbaycan mühacirətinin və Azərbaycan milli azadlıq hərəkatının tanınmış liderlərindən olan Ceyhun bəy Hacıbəylinin həyatı və irsi indiki nəsil üçün örnəkdir.

4.Azərbaycan mühacirət irsində ilk və yeganə, həm də sənədli sinopsisin müəllifi Ceyhun Hacıbəylidir.

5.Ceyhun Hacıbəyli Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, folklorunun təbliğində əhəmiyyətli işlər görmüş, əlindən gələni əsirgəməmişdir. C.Hacıbəylinin ictimai fəaliyyəti də onun ünvanına ən dəyərli fikirlərin söylənməsinə əsas verir.

6.Ceyhun Hacıbəyli özünün zəngin və çoxşaxəli yaradıcılığı, milli – mənəvi irsə qəlbən bağlılığı ilə xalqımızın yaddaşında özünə əbədi abidə ucaltmışdır.

7.Bütün həyatını jurnalistikaya həsr edən Ceyhun Hacıbəyli qəzetçilər, mətbuat, mətbəə-nəşriyyat işi ilə bağlı xeyli məqalə yazmış, mətbuat tariximizin tədqiqi sahəsində qiymətli irs qoymuşdur.

8.C. Hacıbəyli XX əsrin əvvəllərində ən görkəmli və qeyrətli Azərbaycan ziyalıları ilə çiyin-çiyinə xalqımızın ədəbi- mədəni, ictimai-siyasi həyatının zənginləşməsində, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında və möhkəmlənməsində yorulmadan çalışmış və mübarizə aparmışdır.

**Filologiya elmləri doktoru Abid Tahirli**

9.Ceyhun Hacıbəyli elə böyük sənətkarlardandır ki, onun əsərlərini müəllifin tərcümanı hesab etmək olar. Bu əsərlər Ceyhun bəyin keçdiyi şərəfli həyat yoluna işıq salır, onun Vətənə, millətə, dinə sədaqətini, azadlıq, istiqlal ehtirasını parlaq təzahür etdirir.

10.Ceyhun Hacıbəyli Avropada yaşamasına baxmayaraq, fikri Azərbaycan, qibləsi Qarabağ idi. Ömrünün sonuna kimi əqidə və amalına sadiq qalan, mübarizəsini davam etdirən C. Hacıbəylinin ən böyük arzusu Azərbaycanı müstəqil görmək idi.

**Əməkdar jurnalist Flora Xəlilzadə**

11.C.Hacıbəylinin "Qafqaz Azərbaycanın Qarabağ dialekti" adlı elmi məqaləsi Azərbaycan və Qərbi Avropa dilçiləri üçün indi də öz əhəmiyyətini itirməmişdir.

**Jurnalist Mövsüm Əliyev.**

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi, Ceyhun Hacıbəyli bir-birindən maraqlı hekayələrin müəllifidir. Müsabiqə zamanı həmin hekayələrə uşaqlar tərəfindən karikatura çəkilməsi tapşırılır. (Məsələn: "Pristav Ağa", "Hacı Kərim") və s. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Ceyhun Hacıbəylinin əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə karikatura çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır.

Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Ceyhun Hacıbəylinin hekayələri səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Əsəri ən gözəl səhnələşdirən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Ceyhun Hacıbəyli yaradıcılığı müasir gəncliyin gözü ilə" adlı konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, Azərbayycan mühacirət mətbuatı ilə yaxından tanış olan tarixçilərin, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Ceyhun Hacıbəylinin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı haqqında məruzə)

2.Ceyhun Hacıbəylinin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Ceyhun Hacıbəylinin müxtəlif əsərləri ətrafında məruzələri.

4. Konfransın yekunu.

**I məruzə:**Azərbaycan tarixinin özünəməxsusluğunun qorunub saxlanmasında şübhəsiz, fədakar, təmənnasız insanların müstəsna rolu olub. Ceyhun Hacıbəyli də məhz bu şəxsiyyətlərdəndir. Ceyhun Hacıbəyli ədəbiyyatşünas, folklorşünas, politoloq, musiqi nəzəriyyəçisi kimi Azərbaycan mədəniyyətinin inkişafında çox böyük xidmətlər göstərmişdir.

Mövzu baxımından C.Hacıbəylinin mühacirətə qədərki publisistikasını aşağıdakı kimi təsnif etmək olar:
-ədəbiyyat, mədəniyyət, teatr, maarif və mətbuatın problemləri;
-xeyriyyəçilik məsələləri;
-Azərbaycanın ictimai – siyasi, ədəbi-mədəni həyatında parlaq iz qoymuş şəxsiyətlərə həsr olunmuş materiallar;
-dini dəyərlərlə bağlı, eyni zamanda fanatizmin ifşası ilə əlaqədar qələmə alınan yazılar;
-erməni məkrini, hiyləsini və vəhşiliyini ifşa edən məqalələr.

**II məruzə:**Ceyhun Hacıbəyli yaradıcılığının ilk dövründə qələmini felyeton janrında sınamışdır. Felyetonları arasında "Pristav Ağa" daha çox diqqəti cəlb edir. Ceyhun bəy sonrakı illərdən başlayaraq məhsuldar şəkildə maarif, mədəniyyət, din, dil, xeyriyyəçilik, qaçqınlar mövzusunda məqalələr yazıb, cap etdirmişdir. Mühacirətdən əvvəl "Kaspi", "Proqres", "Bakı", "Azərbaycan" və başqa qəzetlərdə yüzlərlə publisistik məqalə, hekayə dərc etdirən C.Hacıbəyli həmin dövrdə "Kaspi", "İttihad" və "Azərbaycan" qəzetlərinin redaktoru olmuşdur. 1920-ci ildə Azərbaycanın sovetləşməsindən sonra Fransaya mühacirət etmiş, ömrünün sonlarınadək orada yaşayıb fəaliyyət göstərmişdir. C. Hacıbəyli Parisdə Qafqaz mətbuatının fəaliyyət göstərməsi sahəsində çalışmış, "La revyu du Monde Musulman", "Le Fiqaro" və b. nəşrlərdə işləmişdir. Parisdə "Qafqaz", Münxen və Parisdə "Azərbaycan" jurnallarının təsisində və nəşrində onun böyük rolu olmuşdur.
**III məruzə**: C. Hacıbəyli bir çox əsərin, o cümlədən "Azərbaycan mətbuatının tarixi", "Qarabağ dialekti və folklor", "Azərbaycanda

antiislam təbliğatı və onun metodları” və s. əsərlərin müəllifidir. 1910-cu ildə o, “Hacı Kərim” povestini yazmış və 1911-ci ildə kitab şəklində çap etdirmişdir. Ceyhun bəy Fransada yaşayarkən Parisdə fransız dilində nəşr olunan “Qafqaz” və Münhendə Azərbaycan dilində çıxan “Azərbaycan” jurnalının redaktoru olmuşdur. “Azadlıq” radiostansiyasının yaradıcılarından sayılan Ceyhun Hacıbəyli Münhendəki “SSRİ-ni Öyrənən Universitetin” müxbir üzvü seçilmişdir. Ceyhun Hacıbəyli ərəb, fars, qədim türk, alman, fransız dillərini və mədəniyyətlərini dərindən bilmişdir. Üzeyir Hacıbəylinin “Arşın mal alan” komediyası məhz Ceyhun bəyin tərcüməsində 1925-ci il iyun ayının 4-də Parisin “Femins” teatrında səhnəyə qoyulmuşdur. O, fransız oxucularına Hüseyn Cavid, C.Cabbarlı kimi şair-dramaturqlarımızı da C.Hacıbəyli tanıtmışdır.

**IV məruzə:** C.Hacıbəyli gənclik illərindən Qərbi Avropanın bir sıra dövri mətbuatında məqalələrini dərc etdirmiş, məqalələrini “Dağıstanlı”, “Ceyhun Dağıstanlı”, “Azəri” kimi imzalamışdır. C. Hacıbəylinin “Aşura” adlı məqaləsi bu mərasimin mahiyyət, məna və həmçinin tarixini öyrənmək baxımından gözəl mənbə olmaqla yanaşı, həm də aşuraya “yamaq vuranlara”, əndazəni aşanlara, eyni zamanda aşura mərasimlərini mətbuatda ifşa edənlərə tutarlı, dolğun cavabdır. Ceyhun bəy bu səpkili məqalələri yazmaqla mövhumat və cəhalət “xəstələrini” məlumatlandırır, dindarlar arasında əsl həqiqətin ortaya çıxmasına çalışırdı.

**V məruzə:** C.Hacıbəylinin maraqlı yazılarından biri də "Azərbaycan şairələri" adlı məqaləsidir. Bu yazı təxminən 1950-ci illərdə qələmə alınmışdır. Burada Ceyhun bəy Aşıq Pəri, Xurşud Banu Natəvan, İbrahim xanın qızları “Ağabacı” təxəllüsü ilə yazan Ağabəyim ağa və Gövhər ağanın həyat və yaradıcılığı haqqında fransız oxucularını tanış edir. Azərbaycanda yaşadığı dövrdə C.Hacıbəylinin bir sıra məqaləsi Azərbaycan klassiklərinin və onun müasirlərinin yaradıcılığına həsr olunmuşdur. S.Ə.

Nəbati, M.F.Axundov, M.Ə.Sabir, Divanbəyoğlu, Həsən bəy Zərdabi, Ə.B.Haqverdiyev, N.B.Vəzirov, İ.Qaspirinski haqqındakı məqalələri daha maraqlıdır. Azərbaycan klassiklərindən başqa türk şairi Tofiq Fikrət, tatar şairi Abdulla Tukay və başqaları haqqında da məqalələr yazmışdır. Ceyhun Hacıbəyli ömrünün sonuna kimi Azərbaycanın azadlığı uğrunda var qüvvəsi ilə çalışmış, unuda bilmədiyi doğma vətəninə, sevimli xalqına yorulmadan xidmət etmişdir. Ceyhun bəy vətənini sevən, hadisələrə həssaslıqla yanaşan bir insan idi. Hamıya yaxşılıq etməkdən və Azəri topluluqlarında olmaqdan böyük zövq duyardı.

**Yekun:**Azərbaycanın ədəbi-mədəni, ictimai-siyasi fikir tarixində əhəmiyyətli rolu olan C. Hacıbəylinin həyat fəaliyyəti uzun illər öyrənilməmiş, mühacirət ədəbiyyatımız kimi, gözdən uzaqda qalmışdı. Nəhayət, Azərbaycan Respublikasının YUNESKO ilə işlər üzrə milli komissiyasının katibi Ramiz Abutalıbov xaricdən ədəbi-mədəni irsimizin toplanmasında və Vətənə gətirilməsində böyük xidmətlər göstərmiş, bir neçə mühacirimizin, eyni zamanda C.Hacıbəyliyə də məxsus yüzlərlə sənədi dövlət arxiv fonduna təhvil vermişdir. Hazırda S.Mümtaz adına Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində C.Hacıbəylinin şəxsi fondu yaradılıb. Ü.Hacıbəylinin ev-muzeyində Azərbaycanın ictimai – siyasi xadimlərindən, ən görkəmli simalarından olan C. Hacıbəyliyə aid guşə yaradılmışdır. Bu guşədə onun Fransada çıxmış kitablarından, məqalələrindən nümunələr və şəkillər var.
**Kitabxanada sevilən tədbirlərdən biri də kitab müzakirəsi, yazıçının kitabxanaçı tərəfindən əsərlərinin təhlil edilməsidir.** Bunun üçün müzakirədən bir həftə əvvəl məktəblilər Ceyhun Hacıbəylinin əsərləri ilə yaxından tanış olur, kitabxanaçıya bu mövzuda verəcəkləri sualları hazırlayırlar. Kitabxanaçı yuxarı sinif şagirdləri ilə C. Hacıbəylinin "Seçilmiş əsərlərinin", yazdığı məqalələrin təhlilini, müzakirəsini keçirir. *Kitabxanaçı əvvəlcə oxuculara C.Hacıbəylinin həyat və yaradıcılığı haqqında məlumat verir.*

**Kitabxanaçı:** Hörmətli oxucular. İstərdim sizinlə birlikdə C. Hacıbəylinin ən çox sevilən, oxunan "**Qarabağın dialekt və folkloru**" əsərinin təhlilini keçirək. Ceyhun bəyin qiymətli və maraqlı əsərlərindən biri də **"Qarabağ dialekti və folkloru"**dur. 1934-cü ildə Parisdə "Asiya" jurnalında çap edilmiş həmin əsəri Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filoloq-alim Bayram Ağayev nəşrə hazırlamışdır. Əsər rus dilində yazılmışdır. Hətta Qarabağ dialekti, folkloru və etnoqrafiyasına dair nümunələr belə bəzi hallarda tərcümə edilməmişdir. Bu əsəri bütün Avropa ictimaiyyətinə təqdim etməkdən ötrü C. Hacıbəyli onu sonradan fransız dilində işləmişdir. Əlbəttə, Azərbaycanı onun bir parçası olan Qarabağın etnoqrafiyasını öyrənmək istəyən avropalılar üçün bu əsər olduqca zəngin məxəzdir. Adət-ənənələrimiz, xalq ədəbiyyatımız və dialektlərimizlə əlaqədar elə səciyyəvi, ümumiləşdirilmiş məlumatlar təqdim olunub ki, həmin məlumat o vaxtadək nəinki Fransada, Rusiyada, hətta Azərbaycanın özündə belə bu cür geniş və sistemli şəkildə araşdırılıb nəşr edilməmişdir. Əsər 33 bölmədən ibarətdir. Hər bölmənin öz adı var. 43 il Avropada yaşayan bir türk oğlu anasından eşitdiyi bayatılardan tutmuş şahidi olduğu hadisələri, adət-ənənələri, mərasimləri, oxşamaları olduğu kimi qələmə alıb. C.Hacıbəyli çox halda içində çəkdiyi Qarabağ xiffətinin ağır dərdlərini soyutmaq üçün el arasında gəzən, ədəbi dildə səslənməyən elə ifadələr, sözlər var ki, onları da öz kitabına salıb. Qarabağ dialekti səslənməsinə görə çox zəngin, formasına görə isə cazibədardır. Əslində Ceyhun bəyin gözəl ailəsi, cəmiyyətdə mövqeyi, nüfuzu, yaxşı dostları, həmrəy olduğu insanlar, Avropanın bütün ölkələrinə açılan qapısı və s. var idi. Müstəqil yaşayırdı, azad düşüncə sahibi idi. Amma vətən həsrəti içini acı qurd kimi yeyirdi. Bu səbəbdən də Qarabağla əlaqədar yaddaşında olanların hamısını nöqtəsinə, vergülünə toxunmadan yadigar qalsın deyə, kağızlara köçürürdü. O, heç vaxt ağlına gətirə bilməzdi ki, həsrətini soyutmaq üçün bildiklərinin hamısını qələmə alması gələcəkdə həmvətənlərinə də çatacaq, onun nisgili

ürəklərdə alışıb yanacaq. Bayatılarla əlaqədar bölümdə onun sıraladığı bu el sərvətinin sarı simi yenə də Qarabağdı. Ömrü boyu içindəki ağrını, acını, çəkilməz dərdlərini Qarabağda eşitdiyi bayatılarla ovutdu: *Gəlin oxucumuzun ifasında bu beyti dinləyək.*

**Oxucu**

Qarabağda talan var,
Zülfün üzə salan var.
Mən burda çox əyləndim,
Gözü yolda qalan var.

Dəryada gəmim qaldı,
Biçmədim, zəmim qaldı.
Fələyin gözündə qalsın
Necə ki mənim qaldı.

**Kitabxanaçı:**Maraqlıdır ki, C. Hacıbəyli şifahi xalq ədəbiyyatı ilə bağlı topladığı bütün inciləri ədəbi dildə yox, məhz eşitdiyi kimi-ləhcədə, xüsusilə də şirin Qarabağ şivəsində qələmə almışdır. Məsələn:

Arazam, Kürə bəndəm,
Bilbiləm, gülə bəndəm.
Qəribəm ölkənizdə,
Bir şirin dilə bəndəm.

C.Hacıbəyli ayların, illərin ayrılığını bir bülbül kimi Fransada dilə gətirirdi. Onun şifahi xalq ədəbiyyatından topladığı nümunələr arasında qafiyəli xalq deyimləri əsas yer tutur. Məsələn:"Qaladan gəldim aşsız, bir alma kəsdim daşsız". Ceyhun bəy xatırladıb ki, Qarabağda "Qala" sözü deyildikdə xanlar dövründə Qala olmuş Şuşa şəhəri nəzərdə tutulur. C.Hacıbəylinin təqdim etdiyi beşik nəğmələri də maraqlıdır. İlk dəfə anasından eşitdiyi bu bədii nümunələri təqdim edərək həm də mənasını açıqlayan müəllif sanki özünə təsəlli vermək istəyir.

Balam gəlir ellərdən,
Başında var tellərdən.

Balamı Allah saxlasın,
Yaman gözdən, dillərdən.
Bu toplunun özü də həsrətin nəticisidir. Vətənini, millətini, xalqını ürəkdən sevən, bu yolda sitəmlərə dözən, yaşayan, yaradan C. Hacıbəyli qürbət ağrısından qovrularaq görün nə deyirdi: "Xalx gül əkdi, gül dərdi, mən gül əkdim, kül dərdim". C. Hacıbəyli son dərəcə mədəni, sözünün yerini bilən, ağır təbiətli, ciddi bir şəxsiyyət olub. Xatirələrinin birində qürbətdə saralmış Ağabəyim ağanın məşhur bayatısını dərin kədərlə yada salıb:
Əziziyəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.
C.Hacıbəyli Qarabağ folkloruna dair araşdırmasını müxtəlif folklor materiallarına əsaslanaraq aparmışdır. İlk müraciət etdiyi forma tapmacalardır. Təbii ki, bu zaman həm Qarabağ bölgəsi, həm də bütünlükdə Azərbaycan folkloru üçün səciyyəvi olan tapmaca misal gətirilir ki, onların da bir necəsi Azərbaycan folkloru üçün səciyyəvidir. Məsələn:
O yana çapar
Bu yana çapar
İçində atlı çapar (Göz)
Bu tapmacalar içərisində sırf Qarabağ bölgəsinə aid olan nümunələr də kifayət qədərdir.
Dağdan gəlir dağ kimi
Qolları budax kimi
Əyilir su içməyə
Bəyirir olax kimi (Bulud)
"Alliterasiya" bölməsində müəllif ümumi qaydalar barədə qeydlər verir və bildirir ki, bu folklor növü "Qarabağ əhalisi arasında çox geniş yayılmışdır: onlar çaşdırmaq və zarafatlar üçündür. Əsas şərt cümlənin cəld təkrar edilməsidir." Bu bölmədə müəllif alliterasiya başlığı altında bəzi yanıltmacaları da vermişdir. Onlardan biri xüsusilə səciyyəvidir.

“Getdim gördüm bir dərədə iki kar kor kürkü yırtıx kirpi var, erkək kar kor kürkü yırtıx kirpi, dişi kar kor kürkü yırtıx kirpinin kürkünü yamayır. Dedim dişi kar kor kürkü yırtıx kirpi erkək kar kor kürkü yırtıx kirpinin kürkünü yamamaxdan erkək kar kor kürkü yırtıx kirpi dişi kar kor kürkü yırtıx kirpinin kürkünü yamayır. Dedi dişi kar kor kürkü yırtıx kirpi erkək kar kor kürkü yırtıx kirpinin kürkünü yamayır, erkək kar kor kürkü yırtıx kirpi də dişi kar kor kürkü yırtıx kirpinin kürkünü yamayır.”

Müəllif daha sonra “Xalq məzhələləri”, “Ağılar” bölmələrini verir. C.Hacıbəyli əsərində belə bir bölmə də verir: “Yerli şəxsiyyətlər haqqında məzəli və ya baməzə lətifələr”. Bu bölməyə “Ziyalılar”, “Mayor Səfi bəy”, “Hüseyn bəy, Murtuza bəyin oğlu”, “Mustafa bəy Behbudov” və başqaları daxildir. Qarabağ bölgəsi üçün səciyyəvi olan məzəli lətifə xüsusilə maraqlıdır: Şuşa ilə bağlı lətifə belədir:

Bir gün Əvdirəhim bəy azarrıyır. Oğlu Behbuda deyir ki: “Get həkimə denən  ki, dədənin başı qarpıza dönüf, dili xiyara, burnu badımcana... nə bilim, nəyi nəyə. Soruşur ki, yadında qaldımı?

Deyir: “bəli”. Deyir nətəər diyəcəksən? Deyir ki: “diyərəm ki, dədəm bostan oluf”.

Araşdırmadakı növbəti bölmələr bunlardır: “Ev heyvanlarının adları”, “Müraciət formaları”, “Zarafatlar”, “Oyunlara giriş”, “Hekayələrə giriş”, “Mövsüm zarafatları”, “Bir neçə şikəstə”, “Bayatılar”, “Alqışlar”, “Yalvarışlar”, “Hədə-qorxu”, “And içmək, inandırmaq”, “Oxşamalar”, “Tərifləmələr”, “Xasiyyətlər”, “Səciyyəvi ifadələr” və s. Bayatılar bölməsində müəllif 35 bayatı nümunə gətirir. Gəlin oxucumuzun ifasında bunlardan bir neçəsini dinləyək.

Oxucu:

Gedən getmə dayan vur
Sirrim sana ayandır.
Gəlişinə mən qurban
Gedişin nə yamandır;

Qarabağda talan var,
Zilfin üzə salan var,
Mən burda çox əyləndim
Gözü yolda qalan var;

Qərənfiləm dəsdəyəm,
Bülbüləm qəfəsdəyəm,
Gedin canana deyin,
Ölməmişəm xəstəyəm;

Barmağım beşdi mənim
Yaşım on beşdi mənim
Yüz il qulluq eləsəm
Axırım heşdi mənim;

Bağımda gül üşüdü,
Şeh düşmüş gül üşüdü,
Güldün ağlım apardın,
Bu gülüş nə gülüşdü.

**Kitabxanaçı:** İnsana məxsus xasiyyətlər barədə 60 nümunə göstərən müəllif həmçinin 34 səciyyəvi ifadəyə müraciət edir. C. Hacıbəylinin "Qarabağın dialekt və folkloru" əsəri təkcə müasirləri üçün deyil, bugünkü oxucu və müvafiq sahə ilə maraqlanan araşdırıcılar üçün də maraqlı və qiymətli mənbədir. C. Hacıbəylinin illər uzunu topladığı və fransız dilində çap etdirdiyi Qarabağın etnoqrafiyasını, yerli əhalinin həyat və düşüncə tərzini, psixologiyasını öyrənmək baxımından avropalılar üçün zəngin mənbədir. C. Hacıbəylinin bu əməyi əvəzsiz və fədakarlıq nümunəsidir. Maraqlı və qiymətli ədəbi, publisistik və elmi irsi ilə C.Hacıbəyli apardığı faydalı araşdırmaları, fransız və alman elmi mətbuatında çap etdirdiyi məqalələri ilə XX əsr Azərbaycan-Avropa ədəbi əlaqələrinə özünəməxsus töhfələr bəxş etmişdir.

**Kitabxanaçı:** *Bu gün sizə C.Hacıbəylinin digər əsərləri haqqında da məlumat vermək istərdim.*

C.Hacıbəylinin “Seçilmiş əsərləri” adı ilə ilk kitabını M. Teymurov və A.Aslanov tərtib etmişdir. Onun yaradıcılığının birinci mərhələsi 1905- ci ildən başlanan ilk qələm sınaqlarından 1919-cu ilədək olan mühacirətəqədərki dövrü əhatə edir. C. Hacıbəyli ilk bədii əsərlərini kiçik həcmli felyetonlarını, **“Pristav ağa”, “Zaqafqaziya kəndlisinin həyatından”, “Barışmaz ata”, “Nümunəvi sübut”** və s. kimi hekayələrini, eləcə də ayrı-ayrı hekayələrdən ibarət **“Hacı Kərim”** povestini “Proqres”, “Baku”, “Kaspi” qəzetlərində dərc etdirmişdir. Həmin əsərlərin qəhrəmanları müxtəlif millətləri və fərqli sosial təbəqələri təmsil etsələr də onları birləşdirən ortaq və ümumi cəhətlər çoxdur. Bir tərəfdən cəhalətin, ətalətin, biganəliyin, fanatizmin, mədəni geriliyin, elmə, təhsilə, tərəqqiyə xor münasibətin, digər tərəfdən çar üsul-idarəsinin mənfur milli siyasətinin tənqidi C. Hacıbəylinin mühacirətəqədərki bədii əsərlərinin başlıca xüsusiyyətlərindəndir. Həmçinin onun rusca yazılmış “Batumdan keçərkən” adlı xatiratında da maraqlı məqamlar çoxdur. Ceyhun Hacıbəylinin bir neçə dil bilməsi onun zamanın gərdişindən yaxşı baş çıxarmasına kömək edib. O, Azərbaycanı tarixi aspektdən öyrənir, bir millət olaraq uğurunu, uğursuzluqlarını öyrənir, təhlil edirdi.

*Uşaqlar indi isə gəlin Ceyhun Hacıbəylinin “Pristav ağa” əsəri haqqında müzakirə aparaq və bu əsəri dahi Ü. Hacıbəyovun qələmə aldığı “Pristav ağa”əsəri ilə müqayisə edək.*

**“Pristav ağa”** C.Hacıbəylinin hekayələri arasında bir çox cəhətdən diqqəti cəlb edir. Əsər “Proqres” qəzetinin 1907- ci il 6-7- ci nömrələrində “Dağıstanski” imzası ilə çap olunmuşdur.

Dahi bəstəkar, opera sənətimizin banisi, istedadlı yazıçı-publisist, C.Hacıbəylinin böyük qardaşı Ü.Hacıbəyli də eyni adlı satirik hekayə yazmışdır. Hər iki əsərin mövzusu eyni hadisədən götürülmüşdür: Pristavın kəndə səfərindən və onun sakinlərlə rəftarından. İstər öz realist təsvirinə, istərsə də toxunduğu

mövzunun aktuallığına və tənqidi pafosuna görə hər iki “Pristav ağa” XX əsr Azərbaycan nəsrinin ən maraqlı nümunələrindəndir.
C. Hacıbəylinin “Pristav ağa”sı ilə Ü. Hacıbəylinin “Pristav ağa”sı arasındakı oxşar və fərqli cəhətləri aşağıdakı kimi ümumiləşdirmək olar:
- çarıxlılar, yəni Ceyhun Hacıbəylinin qəhrəmanları, “M” kəndinin sakinlərinə - Ü. Hacıbəylinin qəhrəmanlarına nisbətən sadəlövhdürlər və pristavın səfərindən faydalanacaqlarına əmindirlər;
- pristavların səfərinə münasibətdən asılı olmayaraq, hər iki kəndin sakinləri eyni cəzanı alırlar, döyülür, təhqir edilirlər.
- hər iki əsərdəki məmurlar cəllad kimi qəddardırlar. C. Hacıbəylinin hekayəsində onlar həm də rüşvətxor kimi təsvir olunmuşlar;
- Ü.Hacıbəylinin “Pristav ağa”sındakı ağanın kəndə səfərində məqsədi kəndlilər üçün qaranlıq qalır. Oxucu isə ağanın kəndə yalnız çalıb -talamaq niyyəti ilə gəldiyini “görür”;
- C.Hacıbəylinin “qəhrəmanı” kəndə başqa niyyətlə təşrif buyurmuşdur. O, quldur Heydərin “izinə düşüb” Çarıxlıya gəlmişdir;
- Ü.Hacıbəylinin “ağa”sından fərqli olaraq, C.Hacıbəylinin “qəhrəmanı”quldurlarla da döyüş səhnəsində təsvir edilir və bu zaman onun yeni keyfiyyətləri-kütbeyinliyi, fərsizliyi üzə çıxır;
-əsərlər həcmcə, dil-üslub xüsusiyyətlərinə görə də bir-birindən fərqlənir;

- Ü.Hacıbəyli hekayəni Azərbaycan dilində yazmışdır. Ərəb-fars kəlmələri hekayənin dilini xeyli ağırlaşdırır. C.Hacıbəyli felyetonu rus dilində qələmə almışdır.
- hər iki əsər bədii irsimizin gözəl nümunələrindəndir və Ceyhun Hacıbəylinin təbirincə desək, “XX əsrdə “mədəni Rusiya imperiyasının ayrılmaz bir parçası olan Zaqafqaziya quberniyalarından birində baş verən səhnə” ilə oxucuları təfsilatı ilə tanış edir. Hekayədə Ceyhun bəyin məqsədi, bir tərəfdən çar

məmurlarının Azərbaycan kəndlisi ilə vəhşicəsinə rəftarını, onun qaniçən, quldur simasını göstərmək, digər tərəfdən müsəlman kəndlisinin hüquqsuzluğunu, avamlığını, zəlil vəziyyətini, hər cür zülmə dözümlülüyünü tənqid etməkdir. Əsər sərt realist bir qələmlə yazılmışdır. XX əsr ədəbiyyatımızda rus hakimiyyətinə, onun məmurlarına qarşı bu cür sərt tənqidi münasibət bəsləyən ikinci bir əsər tanımırıq desək, yəqin ki, səhv etmərik.

***İndi isə gəlin Ceyhun Hacıbəylinin oxucular tərəfindən çox sevilən "Barışmaz ata", "Müdrik hakim", "Nümunəvi sübut" hekayələrinin mövzusu ilə tanış olaq.***

Bu hekayələr populyar Şərq motivlərindən götürülmüşdür. Yazıçının bu əfsanələrə müraciəti təsadüfü deyil. Qədim Şərq didaktik rəvayətlərində təlqin edilənlər dövrün aktual və əhəmiyyətli problemlərindəndir. Hekayələr üçün xarakterik olan yığcam kompozisiya, sadə süjet xətti, dinamizm, kəskin və canlı dioloqlar müəllif ideyasının daha qabarıq üzə çıxarılmasına zəmin yaratmışdır. C.Hacıbəyli bu hekayələri ilə insanları ədalətə, humanizmə, ata-anaya məhəbbətə, rəhmli, səxavətli olmağa, eyni zamanda, ədavətə, yalana, kin-küdurətə, haqsızlığa son qoymağa səsləyir. C.Hacıbəylinin mühacirətəqədərki bədii yaradıcılığı haqqında dediklərimizi yekunlaşdıraraq bu qənaətə gəlirik ki, yazıçı həmin əsərləri ilə XX əsr Azərbaycan maarifçiliyinin və tənqidi realizm cərəyanının görkəmli nümayəndələri ilə bir sırada durmaq haqqını qazanmışdır.

**C.Hacıbəylinin "Hacı Kərimin səhəri", "Zəruri şər", "Hacı Kərim işdə", "Hacı Kərim qonaqlıqda", "Hacı Kərimin romanı", "Hacı Kərimin səfərə hazırlığı"** adlı hekayələrdən ibarət əsərin ideyası cəhalətin, qadın hüquqsuzluğunun, təhsilə laqeyd münasibətin, yalançı möminliyin, xəsisliyin... amansız tənqidi, eyni zamanda maarifə, mədəniyyətə yiyələnməyin vacibliyinin təbliğidir. Əsərin baş qəhrəmanı Hacı Kərim xəsislikdə M.F.Axundzadənin Hacı Qarasından, nadanlıqda C. Məmmədquluzadənin Novruzəlisindən, qadına münasibətində

Xudayar bəydən heç də geri qalmır. C.Hacıbəylinin bu əsərində tənqid realistlərə xas olan ifşaedici, sarkastik satira aparıcı deyil: müəllifin tənqidi gülüşü xəfif bir təbəssümü xatırladır, o, öz qəhrəmanını, onun eyiblərini, mənfi xüsusiyyətlərini, geriliyini ələ salmır, sadəcə, onu yetirən mühiti qınayır... Maarifçi – yazıçının əsas ideyası təhsilə, elmə yiyələnməklə cəhalətdən, nadanlıqdan, mövhumatdan xilas olmaqdır.

**Xatirə gecəsi**

Yubiley tədbirləri arasında xatirə gecəsi özünəməxsus yer tutur. *Ceyhun Hacıbəyliyə həsr olunmuş xatirə gecəsinin ssenarisini sizə təqdim edirik.*

Səhnə Ceyhun Hacıbəylinin portreti, fəaliyyətini əks etdirən şəkillərlə, görkəmli şəxsiyyətlərin onun haqqında söylədiyi kəlamlarla bəzədilir. Gecəyə Ceyhun Hacıbəylinin yaradıcılığına yaxından bələd olan tanınmış millət vəkilləri, yazıçılar, şairlər, siyasətçilər, jurnalistlər, tarixçilər, müəllimlər dəvət olunur. (Ceyhun Hacıbəylinin yaradıcılığı ilə yaxından tanış olan filologiya elmləri doktoru Abid Tahirli, ictimai xadim Ramiz Abutalıbov, Əməkdar jurnalist Flora Xəlilzadə, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova və s.)

*Tədbir Azərbaycan himninin səslənməsi ilə başlayır. Sonra isə tədbir iştirakçılarına Ceyhun Hacıbəylidən bəhs edən slayd təqdim olunur. Daha sonra kitabxanaçı Azərbaycanın Prezidenti İlham Əliyevin Ceyhun Hacıbəylinin 125 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamla tədbir iştirakçılarını tanış edib, tədbiri açıq elan edir. İki nəfər aparıcı səhnəyə çıxıb tədbir iştirakçılarını salamlayırlar.*

**I Aparıcı:** Salam əziz və hörmətli qonaqlar, oxucular. Bu gün biz bura zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla əks etdirmiş və mədəniyyətimiz tarixində qiymətli bir irs qoyub getmiş Ceyhun

Hacıbəylinin 125 illik yubileyini qeyd etmək üçün yığışmışıq. Azərbaycanın milli-mənəvi dünyasını zənginləşdirmiş şəxsiyyətlər möhkəm əqidələri, dərin zəkaları ilə tariximizdə parlaq səhifələr yazmışlar. Bu şəxsiyyətlər doğma yurdun sabahı naminə zamanın sınaqlarına fədakarlıqla sinə gərərək vətənin işıqlı gələcəyini təmin etmişlər.

**II Aparıcı:**Tanınmış ziyalı, nasir, araşdırıcı və publisist Ceyhun Hacıbəyli Avropada Azərbaycan mühacirət folklorşünaslığının təşəkkülündə mühüm rol oynayan simalardan biridir. C.Hacıbəyli dövrünün mütərəqqi ziyalısı kimi Azərbaycan xalqının ictimai fikrinin inkişafında və formalaşmasında özünəməxsus yer tutur. Ceyhun Hacıbəyli - bütün şüurlu həyatını tərəddüdsüz olaraq Azərbaycan uğrunda mübarizəyə həsr edib.

**I Aparıcı:** Həyatının ən gözəl çağında 28 yaşında qürbətə düşən, 71 baharlı ömrünün 43 ilini vətəndən uzaqlarda başa vuran C. Hacıbəyli Azərbaycan mədəniyyətinin ən parlaq və unudulmaz, eyni zamanda ictimai-siyasi mühitinin də görkəmli simalarından biridir. C. Hacıbəylinin arxivini 1990-cı ildə diplomat Ramiz Abutalıbov Fransadan Bakıya gətirib. Bu qiymətli sərvət Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə təhvil verilib. Hazırda həmin arxivdə 20-dən artıq qovluqda Ceyhun bəyin 500 - dən çox sənədi var.

**II Aparıcı:** Akademik Bəkir Nəbiyev yazırdı: "Bu sənədlərdən məlum olur ki, C.Hacıbəyli povest və hekayələr yazmış, elmi-tədqiqat işi ilə məşğul olmuşdur. Onun Azərbaycanın tarixi, etnoqrafiyası, folkloru, ədəbiyyatı və dili sahəsində maraqlı araşdırmaları, "Hacı Kərimin səhəri" adlı povesti vardır. Sonuncu əsər Bakıda çıxan "Kaspi" qəzetində dərc edilmişdir. Bir alim kimi Ceyhun Hacıbəylinin maraq dairəsi geniş idi.

**I Aparıcı:** C.Hacıbəyli tarixi mövzularda əsərlər yazaraq məmləkətini Avropada tanıtmağa çalışırdı. O, "Babək və qədim Arran hökuməti", "Bakı və Bərdə şəhərlərinin tarixi" mövzularında tədqiqatlar aparmış, Şərqin böyük şairləri, Firdovsi

və Şirazinin yaradıcılıqları haqqında mükəmməl məqalələr yazmışdır. Ceyhun bəyin təmasda olduğu, birgə çalışdığı, əməkdaşlıq etdiyi insanlar C.Hacıbəylinin əqidəsi, mənəviyyatı, şəxsiyyəti barədə fikrin formalaşmasına kifayət edir. Qardaşları Üzeyir və Zülfüqar Ceyhun bəyin, həm də ən yaxın mənəvi dostu olmuşdur.

**II Aparıcı:** Ceyhun Hacıbəylinin mühacirətəqədərki həyat və yaradıcılığı 90-cı illərdə ilk dəfə elmi-təbliğat mövzusu kimi işlənmiş və 1996-cı ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə edilmişdir. Onun həyatının bu hissəsini bir cümlə ilə ifadə etmək, belə söyləmək mümkündür: Azərbaycanın istiqlalı uğrunda ideoloji mücadilə. Bu mübarizə 1919-cu ildən başlamış 1962-ci ilədək, vəfatına qədər fasiləsiz davam etmişdir.

**I Aparıcı:** C.Hacıbəyli "Azərbaycan mədəniyyətinin pioneri" adlandırdığı Həsən bəy Zərdabinin vurğunu idi. C.Hacıbəylinin H. Zərdabi, İ.Qaspiralı, Azərbaycanın qadın aşıq şairləri**,** Hüseyn Ərəblinski, Haşım bəy Vəzirov, Hüseyn əfəndi Qayıbov barədə yazdıqları, eləcə də Azərbaycan mətbuat tarixi ilə araşdırmaları da olduqca maraqlı və faydalıdır. Ailə-məişət, maarif, teatr, mədəniyyət, təhsil problemlərinə həsr olunmuş **"Etinasızlığımız", "Ev tərbiyəsi haqqında bəzi qeydlər", "Zülmət işıq", "Müəllimlərin təqdimatı", "Qan düşmənçiliyi", "Aktyora kömək edin", "Cəmiyyətin artistə ehtiramı", "Müsəlman teatr mövsümü", "Kömək lazımdır", "Bizdə cəmiyyət varmı?", "Səhər ibtidai məktəbinin müəllimləri haqqında", "Nuxada gimnaziya", "Qadın təhsilinin ehtiyacları"** və s.

**II Aparıcı:** Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında bir tarixi hadisə idi. İlk dəfə olaraq Şərqdə müsəlman aləmində demokratik respublika yaranmışdı. Azərbaycanın bolşeviklər tərəfindən işğalının ilk illərindən mühacirətdə ömrünün sonunadək sovet rejimi və kommunist ideologiyasına qarşı mücadilə aparan, eyni zamanda milli-mədəni irsimizin xarici ölkələrdə layiqincə təbliğinə, tanıdılmasına çalışan Ceyhun Hacıbəyli yaradıcılıq imkanlarından, istedadından gen-bol

bəhrələnmiş, istifadə etmişdir: Azərbaycan, fransız, rus dillərində publisistik və bədii əsərlər yazmış, tərcüməçiliklə məşğul olmuş, qəzet, jurnal redaktoru kimi antisovet təbliğatında mühüm rol oynamışdır.

**I Aparıcı:** Ceyhun Hacıbəylinin mühacirətdən sonrakı həyatı, fəaliyyəti maraqlı, zəngin, şərəfli, yardıcılığı da maraqlı və məhsuldar olmuşdur. Bu mübarizə 1919- cu ildən başlamış 1962-ci ilədək vəfatına qədər fasiləsiz davam etmişdir. Üzeyir bəyin məşhur "Leyli və Məcnun" operasının yaranmasında Ceyhun bəyin də yaxından köməyi olmuşdur. Bu Ceyhun bəyin şəxsi sənədlər arasında saxlanılan "İlk Azərbaycan operası necə yaranmışdı" xatirə yazısında öz əksini tapmışdır. Turgenevin "Pulsuzluq" komediyası (1909-cu il) ilə Azərbaycan oxucusu ilk dəfə məhz C.Hacıbəylinin tərcüməsindən tanış olub. O, həmin illərdə Azərbaycan klassiklərinin və müasirlərinin yaradıcılığı ilə bağlı məqalələr yazır, həmçinin qonşu türkdilli xalqların nümayəndələrinin yaradıcılığına müraciət edirdi.

**II Aparıcı:** 1918-ci ildə Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunun elan edilməsinə baxmayaraq, Bakı düşmənlərdən hələ də tam təmizlənməmişdi. Həmin il sentyabr ayının 15-də Qafqaz İslam Ordusunun şücaəti sayəsində erməni daşnaklarının vəhşiliyinə son qoyulandan, ingilis əsgərləri ölkədən gedəndən sonra Cümhuriyyət hökuməti Bakıya köçdü. Yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən, bir çox çətinliklərlə dörd nömrəsi Gəncə şəhərində çıxan "Azərbaycan" qəzeti oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir. Qəzet oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, sonra isə 1919-cu ilin yanvar ayının 16-na kimi Ceyhun bəyin müdirliyi ilə nəşr edilir.

**I Aparıcı:**Ceyhun Hacıbəyli "Azərbaycan" qəzetinin ilk redaktoru olmuşdur. O, Avropa dillərini sərbəst bildiyi üçün 1919-cu ilin yanvar ayının 6-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Parisdə keçiriləcək Versal Sülh Konfransı üzrə "müşavir" təyin olunur. Həmin gün Ceyhun bəyə Sülh konfransında iştirak etmək

üçün şəhadətnamə də verilir. Versal Sülh Konfransı respublikamız üçün ciddi əhəmiyyət daşıdığından 1919-cu ilin yanvar ayının 7-də orada iştirak edən Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "General" mandatı təqdim olunur.

**II Aparıcı:**Ceyhun bəy yeni qurulmuş Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Məmmədhəsən Hacınski, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yola düşür. Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmağa nail olmaq idi. 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarına qədər fasilələrlə davam edən həmin konfransda Antanta Azərbaycan Respublikasının istiqlaliyyətini tanıyır. Bu, sovet Rusiyasının qəzəbinə səbəb olur. Ceyhun bəy vətənə qayıtmağın təhlükəli olduğunu görüb ailəsini Fransaya gətirtmək məcburiyyətində qalır. Həyat yoldaşı Zöhrə Hacıbəyli iki yaşı hələ tamam olmamış uşağını da götürüb Ceyhun bəyin yanına gedir.

**I Aparıcı:** Mühacir həyatı yaşamaq çox çətin idi. İşsizlik Ceyhun bəyi ağır vəziyyətə salır. Lakin Ceyhun Hacıbəyli qardaşı Üzeyir bəyə məktub yazanda çətinliklərini ondan gizlətməyə çalışırdı. Ceyhun bəyin həyatının bu "gizlinləri" böyük qardaşı Zülfüqar bəy vasitəsi ilə Üzeyir bəyə çatdırılanda bəstəkar böyük narahatlıq keçirir və dərhal məktub yazaraq Ceyhun bəydən təcili ailəsini götürüb Bakıya qayıtmasını təkid edir və onların qayıtması üçün icazə alacağını da vəd edir. Amma Ceyhun bəy fikirləşir ki, sovet hökuməti Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyətini ona heç zaman bağışlamayacaq. Üzeyir bəy də qardaşının Azərbaycana qayıtması üçün dəfələrlə əlaqədar təşkilatlara müraciət etməsinə baxmayaraq, istəyinə nail ola bilmir.

**II Aparıcı:** C.Hacıbəyli hələ gənclik illərindən Azərbaycan ədiblərinin əsərlərini fransız, ingilis dillərinə çevirməklə öz yaradıcılığını zənginləşdirmişdir. Arxiv sənədlərindən aydın olur

ki, Üzeyir bəyin məşhur “Arşın mal alan” komediyası da məhz Ceyhun bəyin tərcüməsində ilk dəfə olaraq 1925-ci ildə Parisin “Femino” teatrında tamaşaya qoyulmuşdur. 1933-cü ilin yanvar-mart aylarında Parisdə nəşr olunmuş “Asiya” jurnalının əlavə xüsusi buraxılışında C.Hacıbəylinin 144 səhifədən ibarət olan “Qarabağ dialekti və folkloru” əsəri dərc edilmişdir. C.Hacıbəyli 1940-cı ildə fars şairi Ə.Firdovsinin həyat və yaradıcılığı haqqında da məqalə yazmışdır. Onun Azərbaycan muğamları və musiqi klassikləri haqqında yazıları da maraqlıdır.

**I Aparıcı:** İkinci Dünya müharibəsinin ağrıları Ceyhun bəyin ailəsindən də yan keçmir. Üzeyir bəyin hər bir məktubunda xatırlanan və əzizlənən Ceyhun bəyin Bakıda dünyaya gəlmiş oğlu Ceyhun 1937-ci ildə Paris Hərbi Akademiyasını müvəffəqiyyətlə bitirəndən sonra alman faşizminə qarşı vuruşmaq üçün cəbhəyə gedir. Düşmənlə döyüşmək üçün təyyarəsi ilə səmaya qalxan Ceyhun bərabər olmayan vuruşda qəhrəmanlıqla həlak olur. 23 yaşlı oğlunu itirən Ceyhun bəy sarsıntılar keçirir. Bir tərəfdən vətən həsrəti, digər tərəfdən isə oğlunun faciəsi uzun zaman onu rahat buraxmır.

**II Aparıcı:** Ceyhun Hacıbəyli əziz vətəninin və xalqının qurtuluş mübarizəsinə liderlik edənlərdən biri olmuşdur. Eyni zamanda istedadlı bir publisist olan məhrum istilaya uğrayan vətənin haqq və hüquq davasını bütün dünya ictimaiyyəti qarşısında layiqli müdafiə etmişdir. Mühacirət həyatının son illərini daha da ağır nisgillə keçirən Ceyhun Hacıbəyli xatirələrində çox xəfif və kövrək bir şəkildə ötənlərə boylanaraq yazırdı:

*Səhnə o dövrü xatırladan dekorasiyalarla bəzədilir. Səhnədə Ceyhun Hacıbəylini canlandıran oxucu görünür. Ceyhun Hacıbəyli yazı stolunda oturub dərin fikrə dalır.*

**C.Hacıbəyli:**“Doğmalarımdan ayrılmağımın həsrətini bu qırx il ərzində tez-tez çəkirəm. Ən çox da yadıma düşən bacılarımdı. Bəzən də anamın və ortancıl qardaşımın surətləri bacılarımın surətlərini əvəz edirdi. Yadımdadı, mən Fransaya gələndə

bacılarım necə acı göz yaşları tökdülər. Anamın dolu gözləri xəyalımdan çəkilmir. Mən onları inandırırdım ki, cəmisi iki aylığa gedirəm. Nə üçün ağlayırsınız? Amma mən özüm də bilmədən onları aldatmışam. İndi məmləkətimdən ayrılmağımın 41 ilini yaşayıram. Onları bir daha görmədim və heç vaxt da görməyəcəyəm. Doğmalarım - kişilər və qadınlar bir-birinin ardınca dünyadan köçürlər. Elə mən özüm də köçəcəyəm...”.

**I Aparıcı:** Bunu yazanda C.Hacıbəyli az qala 70 yaşı haqlayacaqdı. Amma qürbətə gələndə onun cəmi 28 yaşı var idi. Ceyhun Hacıbəyli Azərbaycan istiqlal mücadiləsinin, azadlıq hərəkatının ən gənc mühaciri olmaqla yanaşı, qürbətdə ən acı və ən çox ömür keçirən bir şəxs kimi yadda qaldı. Onu haqqında xatirələrin birində deyilir: “Ceyhun bəy Parisə özü ilə birgə daim həsrətini çəkdiyi, ömrünün sonuna qədər xəyallarında yaşatdığı Qarabağı da gətirmişdi. O, qürbətdə iki həyat yaşayırdı - bir real Paris həyatını, bir də xəyallarında qurub-yaratdığı nisgillərdən, gümanlardan, xatirələrdən ibarət vətən həyatını”.

**II Aparıcı:** Azərbaycanı Avropada tanıtdıran bir şəxsi sovetlər birliyi təbii ki, bağışlaya bilməzdi. Parisdə dəfn edilən Ceyhun Hacıbəylinin vətəndə də hələ qazılmamış məzarı var.

Üzeyir bəy hələ də onu “gözləyir...”. Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun bəy Hacıbəyli 1962-ci ildə - Fransada vətən həsrəti ilə gözlərini əbədi yumur və Parisin Sen-Kulu qəbiristanlığında torpağa tapşırılır.

**I Aparıcı:** Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdir, onların əməllərinin sayəsində dünyanın nuru artır. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib. “Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz”.

**II Aparıcı:** İllər keçəcək, Hacıbəylilər nəslinin mədəniyyətimizin inkişafındakı müsətəsna xidmətləriylə bağlı daha yeni-yeni soraqlar üzə çıxacaq. Məhz Hacıbəylilər nəslinin sözün böyük mənasında yaradıcılıq təşnəsinin güclü olmasındandır ki, bu nəsildən olan Ceyhun Hacıbəylinin gördüyü işlərin qiyməti, dəyəri bundan sonra aydın şəkildə bilinəcək. Azərbaycanı o zaman tərk edən Ceyhun Hacıbəylinin 90-cı illərdə Vətənə ruhən qayıdışını həmişəlik qayıdış hesab etmək olar. Ceyhun Hacıbəyli Azərbaycana tükənməz sevgisi, böyük mübarizəsi ilə Vətən üçün yaşadığını sübut etdi.
**I Aparıcı:** Deyirlər ki, zaman bir çox ayrılıqlara, itkilərə, müsibətlərə sığal çəkir, unutdurur. Amma zamanın gücü çatmadığı, yaddan çıxarda bilmədiyi yalnız Vətən dərdidir. Əksinə, bu ayrılıq yaşlaşdıqca həsrəti daha da cavanlaşaraq üstünə çalağan kimi şığıyır. Xatirələrdən bəlli olur ki, Ceyhun Hacıbəyli ömrünün sonlarında tez-tez ana dilində bu sözləri pıçıldayarmış: "Qarabağ, Qarabağ, bir gün səndən ayrı tabım olmazdı. İndi oldum illər ayrısı..."
**II Aparıcı**: Bu ayrılıq bir gün sona yetdi. C.Hacıbəylinin övladı, nəvəsi Azərbaycana gəldi. Amma həyatda nə Ceyhunun özü var idi, nə də... Qarabağ erməni quldurları tərəfindən işğal edilmişdi. Bu gəlişin, bu görüşün bəlkə də ən ağır, dözülməz məqamlarından biri də C.Hacıbəylinin tez-tez xatırladığı qardaşı Üzeyir bəyin Şuşadakı heykəlinin erməni quldurları tərəfindən güllələnməsi oldu. Fransadan gəlmiş Hacıbəylilər Bakıda İncəsənət Muzeyinin həyətində yurda qayıdış gözləyən bu küskün abidələrə Natəvanın, Üzeyir bəyin, Bülbülün büstlərinə baxarkən göz yaşlarını saxlaya bilmədilər. Amma o gün mütləq gələcək, Qarabağımızın üzü yenə güləcək, bütün soydaşlarımız, dirimiz də, heykəlimiz də ruhumuzun əbədi qərar tutduğu Qarabağa dönəcək!... Biz buna inanırıq. C.Hacıbəylinin xatirəsinin layiqincə əbədiləşdirilməsi, yubileyinin keçirilməsi, irsinin tədrisi hər birimizin vətəndaşlıq borcudur.

Son

F.Köçərli adına RUK-nın biblioqrafiya şöbəsi Ceyhun Hacıbəyli haqqında ədəbiyyat siyahısı hazırlamışdır.

**Ədəbiyyat siyahısı**

Kitablarda:

1.Ceyhun Hacıbəyli // Azərbaycan Demokratik Respublikası : Azərbaycan hökuməti 1918-1920. – Bakı : Gənclik, 1990. – S. 46

2.Hacıbəyli Ceyhun Əbdülhüseyn oğlu (1891-1962) // Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 clddə. I cild. – Bakı : Lider, 2004. – S. 403-404.

3.Hacıbəyli Ceyhun bəy Əbdülhüseyn oğlu (1891-1962) // Üzeyir Hacıbəyov ensiklopediyası. – Bakı : Şərq-Qərb, 2007. – S. 78-79.

4.Paris sülh konfransı (1919-1920) // Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası.2 clddə. II cild. – Bakı : Lider, 2005. – S. 282-285.

5.Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991) . - Bakı : Polygraphig-Production, 2005.

6.Tahirli A. Ceyhun bəyin Vəsiyyəti //Azərbaycan mühacirət mətbuatı. I hissə. – Bakı : Qapp-Poliqraf, 2002. – S.138-144.

7.Vəliyeva F. (Hicran).Ceyhun Hacıbəylinin Azərbaycan folklorunun araşdırılması sahəsində fəaliyyəti // Azərbaycan mühacirət folklorşünaslığı : - Bakı : Qartal, 2009. – S.116-137.

8.Yaqublu N. Ceyhun Hacıbəyli(1891-1962) // Bakının qurtuluşu. – Bakı : Adiloğlu, 2008. – S. 244.

**Dövri mətbuatda**

1.Abbaslı T. Cismi qürbətdə uyuyan böyük isim : Şuşa ağrılı, Bakı azarlı, Paris məzarlı Ceyhun Hacıbəyli... // Mədəniyyət. - 2012. - 1 fevral. - № 7. - S. 13.

2.Abbaslı T. Qürbətdə uyuyan dahimiz - Ceyhun Hacıbəyli // Mədəniyyət. - 2011. – 2 fevral. - N 8. - S. 15.

3.Aydınoğlu T. "Şuşa – Bakı – Paris" istiqlal mücahidinin tale yolu : Ceyhun Hacıbəyli – 110 // Xalq qəzeti. – 2001. 2 mart. - S. 6.

4.Ceyhun bəy Hacıbəyli : "Azərbaycan"ın ilk redaktorları // Azərbaycan. - 2008. - 14 sentyabr. - S. 4.

5.Əliyev M. Ceyhun Hacıbəyli // Odlar yurdu. – 1988. Əliyev Z. "Hacıbəyov qardaşlarının operası..." // Xalq qəzeti. – 2001. – 1 sentyabr. – S. 5.

6.Hafizova S. Bütöv bir ömür : dövlət xadimi Ceyhun Hacıbəyli haqqında // Kaspi. - 2011. - N 21.

7.Xəlilzadə F.Ceyhun Hacıbəylinin Vətən xiffəti // Azərbaycan. - 2012. - 2 noyabr. - № 244. - S. 10.

8.Kənan A. Ceyhun bəy Hacıbəyli // Azərbaycan. - 2012. - 3 fevral. - № 26. - S. 6.

9.Kənan A. Sonbeşiyin vətən həsrəti : Ceyhun bəy Hacıbəyli // Füyuzat. - 2013. - № 4. - S. 28-34.

10.Ceyhun Hacıbəylinin bədii və publisistik irsinə bir nəzər : I. Mühacirətəqədərki dövr // Ədəbiyyat qəzeti. – 2015. – 26 dekabr.

- № 64. – S. 20.

**İnternet səhifələrində**

1.Bakıdakı qəbir yeri boş qalmış Ceyhun Hacıbəyli //www.news.milli.az Ceyhun Hacıbəyli //www.az.wikipedia.org 2.Ceyhun Hacıbəylı (1891-1962) //www.azerbaycanli.org/az Ceyhun Hacıbəyli - ədəbiyyatşünas, musiqi nəzəriyyəçisi //www.anl.az

3.Ceyhun Hacıbəyli haqqında bilmədiklərimiz //www.modern.az/articles Vətən həsrətli Ceyhun Hacıbəylinin həyatı //www. news.day.az

**“İstiqlal aşiqi Ceyhun Hacıbəyli” – Ceyhun Hacıbəylinin 125 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**


**Kompyuter yığımı
və dizayn:** ***Ruhiyyə Məmmədli***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com**
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz